# Naxçıvan məktəblərində “Kitab bilik mənbəyidir” devizi altında sərgilər təşkil olunub






Ümummilli liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir”. Xalqımızın tarixinin, folklorunun, mədəniyyətinin, milli-mənəvi sərvətlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasında, gələcək nəsillərə ötürülməsində və böyüyən gənc nəslin, ümumilikdə cəmiyyətimizin intellektual potensialının artırılmasında kitabxanalar əvəzsiz rol oynayır. Tarixən yüksək kitab mədəniyyəti ilə seçilən Azərbaycan bütün dünyada zəngin və qədim kitabxanaları ilə tanınıb.

İnformasiya əsri adlandırılan XXI əsr kitabxanaların qarşısında bir sıra yeni vəzifələr qoyur. Belə ki, kitabxana fondlarının müasir ədəbiyyatlarla zənginləşdirilməsi, kitabxanaların informasiyalaşdırılması, milli-mədəni irsimizin və adət-ənənələrimizin qorunması, kitabxana şəbəkəsinin idarəetmə strukturunun təkmilləşdirilməsi, kadr islahatlarının həyata keçirilməsi, yeni kitabxana binalarının tikilməsi, mövcud kitabxanaların maddi-texniki bazasının müasir dövrün tələblərinə uyğunlaşdırılması, dünya kitabxanaları ilə beynəlxalq əlaqələrin inkişaf etdirilməsi və genişləndirilməsi, beynəlxalq tədbirlərin təşkili və sair məsələlərlə bağlı böyük işlər görülür.

Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da kitabxana binalarının tikilməsi, kitabxana şəbəkəsinin sürətli inkişafı, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, ixtisaslı kitabxanaçı kadrların hazırlanması istiqamətində ardıcıl və məqsədyönlü işlər həyata keçirilir. Hazırda Naxçıvan MR-də 2 muxtar respublika tabeli kitabxana, 8 mərkəzləşdirilmiş kitabxana sistemi və onların tabeliyində 224 filial-kitabxana fəaliyyət göstərir. Son illər muxtar respublikanın rayon mərkəzlərində və 100-dən çox kənddə kitabxanalar üçün müasir şərait yaradılıb.

Bü gün muxtar respublikamızda yeni məktəb binaları tikilir və ya mövcud binalar əsaslı şəkildə yenidən qurulur. Ümumtəhsil məktəblərinin hər birində bədii ədəbiyyat və dərsliklərlə zəngin olan kitabxanalar fəaliyyət göstərir. Belə mədəniyyət müəssisələri təhsil, təlim və tərbiyənin həyata keçirilməsinə, uşaqlarda yaradıcı fəallığın, əmək vərdişlərinin, dərketmə qabiliyyətinin, təhsilə və ictimai vəzifələrə sayıq münasibətin inkişafına kömək edir, onlarda oxu mədəniyyətini formalaşdırır. Həmçinin şagirdlərin asudə vaxtlarının səmərəli keçirilməsində, bilik və bacarıqlarının artırılmasında, ümumi dünyagörüşünün formalaşmasında, düzgün tərbiyə olunmasında məktəb kitabxanaları da mühüm rol oynayır. Belə ki, məktəb kitabxanaları ulu öndər Heydər Əliyev irsinin, fəaliyyətinin, qurduğu dövlətçilik ənənələrinin, azərbaycançılıq ideyasının təbliğində, milli-mənəvi dəyərlərin, ana dilimizin qorunmasında, şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşdırılmasında əvəzsiz rol oynayır.

Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamına uyğun olaraq bu günə qədər Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin kitabxanalarına 627 min 643 nüsxə bədii ədəbiyyat verilmişdir. Şagirdlərin kitaba olan marağını artırmaq məqsədilə cari ilin dekabr ayından Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən “Kitab bilik mənbəyidir” devizi altında bütün ümumtəhsil məktəblərində yeni layihə həyata keçirilmişdir. Layihənin məqsədi oxucu sayının artırılması, şagirdlərlə yanaşı, müəllim və valideynlərin də kütləvi şəkildə kitabxanalara cəlb olunmasından ibarətdir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və ümumtəhsil məktəblərinin foyesində təşkil olunmuş sərgidə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan və dünya ədəbiyyatının klassiklərindən, qədim və zəngin tarixi ənənələri özündə yaşadan Naxçıvanın tarixindən, tarixi şəxsiyyətlərindən, mədəniyyətindən, teatr xadimlərindən bəhs edən kitablar sərgilənmişdir. Bununla yanaşı Naxçıvan ensiklopediyası, “Naxçıvan” jurnalının bütün nömrələri, fənn kurikulumlarının tədrisi ilə əlaqədar yeni nəşr olunan kitablar da sərgidə yer almışdır.

Qədim xalçaçılıq ənənələrini özündə yaşadan Naxçıvan tarixən xalçaları ilə məşhurlaşmışdır. Bu ənənəyə sadiq qalmaq, xalçaçılıq sənətinin sirlərini şagirdlərə aşılamaq məqsədilə Naxçıvan Qızlar Liseyində xalçaçılıq dərnəyi təşkil olunmuş, bu mövzuda olan kitablar sərgilənmişdir.

Gənc nəslin yetişməsində kitabxanaçıların da üzərinə mühüm vəzifələr düşür. Kitabxanaçı işini elə qurmalıdır ki, məktəbdə təhsil alan şagirdləri müasir dövrün tələbinə cavab verə biləcək bir səviyyəyə çatdıra, bilik və bacarıqlara yiyələndirə bilsin. Zəngin tarixə və qədim mədəniyyətə malik olan Naxçıvan torpağından tarixin müxtəlif dönəmlərində görkəmli ziyalılar, mütəfəkkir və yazıçılar çıxmışdır. Xalqımızın maariflənməsi, ədəbiyyatımızın, mədəniyyətimizin, elmimizin inkişafında yorulmadan fəaliyyət göstərən bu görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinin öyrənilməsi, bugünkü və gələcək nəsillərə çatdırılması vacib məsələdir. Naxçıvan elminin, ədəbiyyatının, teatrının inkişafında xüsusi xidmətləri olan belə ziyalılardan biri də Eynəli bəy Sultanovdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 15 fevral tarixli Sərəncamının tədbirlər planına uyğun olaraq görkəmli mütəfəkkirin həyat və fəaliyyətinin tədqiq olunması məqsədilə kitabxanalarımızda sərgilər təşkil olunur, maarifləndirici söhbətlər aparılır. Bununla yanaşı, ölkəmizin qəhrəmanlıq və mübarizlik tarixini özündə əks etdirən şifahi xalq ədəbiyyatı nümunələrinin, “Dədə Qorqud” və “Koroğlu” dastanlarının, bir sıra nağıllarımızın şagirdlər arasında təbliğ edilməsi onlarda vətənpərvərlik, qəhrəmanlıq, mübarizlik, yadelli işğalçılara qarşı nifrət, doğma torpağa məhəbbət hissləri formalaşdırır. Eyni zamanda kitabxanalarda N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, A.Səhhət, M.Ə.Sabir, S.Vurğun və başqa klassiklərimizin yubiley tədbirlərinin, onların əsərlərinin müzakirələrinin keçirilməsi uşaqların dünyagörüşünün zənginləşməsi, Azərbaycan ədəbiyyatı ilə yaxından tanış olmaları üçün geniş imkanlar yaradır.

Şagirdlərin mütaliəyə marağını artırmaq, asudə vaxtlarını səmərəli keçirmək məqsədilə cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Yazıçılar Birliyi və “Şərq qapısı” qəzetinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında “Kitab bilik mənbəyidir” adlı müsabiqə keçirilib. Müsabiqədə daha çox bədii ədəbiyyat oxumuş, geniş dünyagörüşə malik olan şagirdlər iştirak ediblər. Qaliblərə diplom və qiymətli hədiyyələr verilmişdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Fəaliyyət Planında qarşıya qoyulmuş vəzifələrin icrası ilə əlaqədar mütəmadi olaraq konfranslar təşkil edilir. Həmin konfranslarda şagirdlərin kitabxanalara cəlb edilməsi, fiziki sağlamlığının daim nəzarətdə saxlanılması, onlara yüksək səviyyədə psixoloji xidmətin göstərilməsi, qloballaşan dünyamızda gənc nəslin xarici dillərə marağının daha da artırılması mövzusundakı aktual məsələlər, dərslərin müasir təlim metodları ilə keçirilməsi və təhsil sahəsində qəbul edilmiş yeniliklər müzakirə olunur. Cari ilin oktyabrında Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhər Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində muxtar respublikanın ümumtəhsil məktəblərində məktəb kitabxanalarının fəaliyyətinin gücləndirilməsinə həsr olunmuş konfrans keçirilmişdir. Konfransda şagirdlərin kitabxanalara cəlb olunması, məktəb kitabxanaçılarının işlərini günün tələbləri səviyyəsində qurması məqsədilə tövsiyə və tapşırıqlar verilmiş, videoslaydlar və yaddaş kitabçaları paylanılmışdır.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları mütəmadi olaraq ümumtəhsil məktəblərində şagirdlərin kitaba marağının daha da artırılması, onların asudə vaxtlarının səmərəli təşkil olunması və ümumi dünyagörüşünün formalaşdırılması məqsədilə məktəb kollektivinin, valideynlərin və şagirdlərin iştirakı ilə seminarlar təşkil edir, kitabxanaların fəaliyyəti ilə yaxından tanış olur, təhlillər aparır, uşaqlara göstərilən kitabxana xidmətinin yaxşılaşdırılması barədə təkliflərini verirlər.

**Kamal FƏRƏCOV,**
*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı*